1_Layout 1 11.08.2026 11:30 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 15 (727)
14 avqust 2026-cı il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## QARŞILIQLI ETİMADA SÖYKƏNƏN STRATEJİ TƏRƏFDAŞLIQ

**"Azərbaycan" qəzetinin müxbiri İsmayıl Qocayevin müəllifi olduğu "Qarşılıqlı etimada söykənən strateji tərəfdaşlıq" başlıqlı məqaləni ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında münasibətlər öz tarixinin ən məhsuldar dövrünü, keyfiyyətcə yeni mərhələsini yaşayır. Xüsusən, regional və qlobal reallıqların sürətlə dəyişdiyi bir dövrdə iki ölkə arasındakı əlaqələr uzunmüddətli strateji müstəviyə qədəm qoyub. Bakı və Vaşinqton arasında bu tarixi dönüşün və yeni mərhələnin təməli 2025-ci il avqustun 7-də Azərbaycan Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri ilə qoyuldu.



Avqustun 8-də Ağ Evdə keçirilən görüş və yüksəksəviyyəli danışıqlar diplomatik münasibətlərin parlaq səhifəsi kimi tarixə düşdü. Vaşinqtonda Azərbaycan liderinə göstərilən xüsusi diqqət və ehtiram iki ölkə arasındakı etimad mühitinin nə qədər yüksək olduğunu nümayiş etdirdi. Görüş zamanı ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyevi iradəli və güclü lider kimi xarakterizə edərək, dövlətimizin başçısının Cənubi Qafqazda sabitliyin və inkişafın təmin olunmasındakı müstəsna rolunu xüsusi vurğuladı. Liderlər arasında səmimi dialoq, hədiyyələrin təqdim olunması dövlət başçıları arasında formalaşan şəxsi etimadın və yüksək siyasi dialoqun bariz nümunəsi idi.

Tramp administrasiyasının praqmatik yanaşması Azərbaycan ilə Ermənistan arasında sülh prosesinə də müsbət töhfələr verdi. Avqustun 8-də Vaşinqton sammiti çərçivəsində ABŞ-nin iştirakı ilə Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamənin imzalanması, tarixi sülh sazişinin mətninin paraflanması, eyni zamanda Azərbaycan və ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə xüsusi İşçi Qrupunun yaradılması həm Cənubi Qafqazda sabitliyin, həm də ikitərəfli münasibətlərdə inkişafın təməlini qoyan mühüm qərarlar oldu. Bu addımlar Vaşinqtonun Bakı ilə əlaqələri konkret mexanizmlər üzərindən inkişaf etdirmək əzmini aydın şəkildə nümayiş etdirdi.

Tarixi səfər çərçivəsində atılan ən mühüm siyasi addımlardan biri də illər boyu ikitərəfli əlaqələrə kölgə salan 907-ci düzəlişlə bağlı verilən qərar oldu. 1992-ci ildə erməni lobbisinin təsiri nəticəsində qəbul edilən bu düzəliş mahiyyət etibarilə ədalətsiz qərar idi. Prezident Donald Trampın 907-ci düzəlişin tətbiqini dayandıran sərəncam imzalaması Vaşinqtonun Bakı ilə münasibətlərdə praqmatik mövqeyə üstünlük verdiyinin göstəricisidir.

Ağ Evdə əldə olunan razılaşmaların məntiqi davamı kimi növbəti mərhələdə keçirilən Davos görüşü, habelə Prezident Donald Trampın təşəbbüskarı olduğu Sülh Şurasına Azərbaycanın təsisçi üzv kimi dəvət edilməsi Bakının artan qlobal nüfuzunu və Vaşinqtonun Azərbaycana verdiyi strateji dəyəri bir daha təsdiqlədi. Davosdakı təmaslar liderlər səviyyəsində formalaşmış siyasi dialoqun davamlı xarakter aldığını və ikitərəfli əməkdaşlığın qlobal platformalarda da uğurla irəlilədiyini göstərdi. Prezident Donald Trampın təşəbbüskarı olduğu beynəlxalq Sülh Şurasına Azərbaycanın təsisçi üzv kimi dəvət edilməsi Bakının qlobal təhlükəsizlik və sülh quruculuğu proseslərinə verdiyi real töhfələrin beynəlxalq miqyasda etirafıdır.

Bu prosesin ən əhəmiyyətli nəticəsi ABŞ-nin Vitse-prezidenti Ceyms Devid Vensin 2026-cı ilin fevral ayında Azərbaycana rəsmi səfəri və bu səfər zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanması oldu. Vensin Bakıya gəlişi Vaşinqtonun Azərbaycanın regional gücünə və qlobal roluna verdiyi yüksək dəyərin göstəricisi idi. Səfər çərçivəsində imzalanan sənədlər iki ölkə arasında təhlükəsizlik, iqtisadiyyat, energetika, nəqliyyat, rəqəmsal texnologiyalar və süni intellekt kimi strateji istiqamətlərdə uzunmüddətli fəaliyyət çərçivəsini hüquqi baxımdan təsbit etdi.

Prezident İlham Əliyev iyulun 13-də Şuşada IV Qlobal Media Forumunun açılış mərasimində Azərbaycan-ABŞ münasibətlərinin yüksək səviyyəyə çatdığını xüsusi vurğuladı: "Münasibətlər Tramp Administrasiyası ilə Azərbaycan arasında əladır və biz çox şadıq ki, o əlaqələr həqiqətən strateji tərəfdaşlıq səviyyəsinə qalxıb. Ötən ilin avqust ayında Vaşinqtonda Prezident Trampla tarixi görüşüm və sonradan bu ilin yanvarında Davosdakı görüşümüz, Prezident Trampın təşəbbüskarı olduğu Sülh Şurasına Azərbaycanın təsisçi üzv kimi dəvət olunması, Vitse-prezident Ceyms Devid Vensin səfəri, Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatı Vitse-prezidentlə Bakıda imzalamağımız və bir çox digər meyarlar göstərir ki, hazırda münasibətlər heç zaman görmədiyimiz zirvə səviyyəsindədir. Bu gün biz strateji tərəfdaşlıq haqqında Bəyanatın bütün müddəalarının icrası üzərində fəal şəkildə işləyirik".

Azərbaycan ABŞ üçün həm də Mərkəzi Asiyaya və türk dünyasına açılan mühüm strateji qapıdır. Xüsusilə Trans-Xəzər Nəqliyyat Marşrutunun (Orta dəhliz) inkişafı, regionlararası nəqliyyat və tranzit imkanlarının genişləndirilməsi, habelə beynəlxalq sülhün reallaşdırılması istiqamətində Bakı ilə Vaşinqtonun baxışları tamamilə üst-üstə düşür. ABŞ Avrasiya məkanında təhlükəsiz və fasiləsiz tədarük zəncirlərinin qurulmasında Azərbaycanın həlledici rolunu yüksək qiymətləndirir.

İkitərəfli əməkdaşlığın iqtisadi təməlləri də genişlənməkdədir. Amerika Birləşmiş Ştatlarının nəhəng texnologiya şirkətlərinin Azərbaycanda bərpaolunan enerji, rəqəmsal infrastrukturların qurulması və süni intellekt texnologiyalarının tətbiqi sahələrinə marağı əhəmiyyətli dərəcədə artıb. Qarşılıqlı investisiyaların təşviqi, ticarət dövriyyəsinin şaxələndirilməsi və birgə innovasiya layihələrinin reallaşdırılması Azərbaycanın qeyri-neft sektorunun inkişafına, eyni zamanda iki ölkə arasında biznes dairələrinin daha sıx inteqrasiyasına xidmət edir. Keçmişdə enerji və antiterror əməkdaşlığı ilə məhdudlaşan ikitərəfli gündəlik bu gün investisiyalar, rəqəmsal transformasiya, müdafiə sənayesi və yüksək texnologiyalar hesabına daha da zənginləşib.

Bütün bunlar göstərir ki, Azərbaycan-ABŞ münasibətləri qarşılıqlı etimada, dərin hörmətə və strateji maraqlara söykənən dayanıqlı modelə çevrilib. Liderlərin siyasi iradəsi, yüksəksəviyyəli səfərlər və imzalanan tarixi sənədlər iki ölkə arasındakı tərəfdaşlığın gələcəkdə daha da möhkəmlənəcəyini, regional sabitliyin əsas zəmanətlərindən biri olacağını sübut edir.

## Çolpon-Ata şəhərində Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilib

İyulun 31-də Qırğızıstanın Çolpon-Ata şəhərində Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilib.




AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çolpon-Ata şəhərindəki Konqres Mərkəzinə gəldi.

Qırğızıstan Prezidenti Sadır Japarov dövlətimizin başçısını və görüşdə iştirak edən digər prezidentləri qarşıladı.

Azərbaycanın, Qırğızıstanın, Özbəkistanın, Qazaxıstanın, Tacikistanın və Türkmənistanın dövlət başçıları birgə foto çəkdirdilər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Prezident İlham Əliyevin çıxışı:

- Hörmətli Sadır Nurqojoyeviç.

Hörmətli həmkarlar.

Əvvəlcə, Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Dövlət Başçılarının Məşvərət Görüşündə iştirak etmək üçün dəvətə görə Qırğızıstan Prezidentinə təşəkkürümü bildirirəm. Mən dünəndən Qırğızıstanda səfərdəyəm və ilk növbədə ölkənin sosial-iqtisadi inkişafında böyük uğurlara, həmçinin İssık-Kul gölünün ətrafındakı ərazinin necə dəyişməsinə, kurorta və beynəlxalq səviyyəli turizm istiqamətinə çevrilməsinə görə Qırğızıstan Prezidentini bir daha təbrik etmək istərdim.

Eyni zamanda, Qırğızıstanda dövlət səfərindəyəm. Bu gün həmkarım Sadır Nurqojoyeviç ilə ikitərəfli qarşılıqlı fəaliyyətimizin geniş gündəliyinə dair ətraflı müzakirələr apardıq. İkitərəfli əlaqələrin uğurlu inkişafını müəyyənləşdirəcək böyük sənədlər zərfi imzalandı. Amma imzalanan sənədlər arasında müttəfiqlik münasibətləri haqqında müqaviləni xüsusi qeyd etmək istərdim. Bu, iki qardaş ölkə arasında münasibətləri müttəfiqlik səviyyəsinə qaldıran qarşılıqlı fəaliyyətin ən yüksək dərəcəsidir.

Onu da qeyd etmək istərdim ki, iki qardaş ölkə arasında iqtisadi-ticari münasibətlərin uğurla inkişafı məni sevindirir. Bu gün imzaladığımız sənədlərdən biri də birgə Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun vəsaitlərinin 100 milyon dollardan 200 milyon dollara çatdırılmasını nəzərdə tutur. Görülən işlər, birgə Fondun maliyyələşdirilməsi çərçivəsində artıq həyata keçirilən layihələr haqqında bizə məlumat verildi. Bir neçə müəssisə artıq fəaliyyət göstərir, amma potensial da kifayət qədər böyükdür.

Biz, həmçinin çox sevinirik və fəxr edirik ki, İssık-Kulun sahilində ilk beşulduzlu hotel Azərbaycan tərəfindən inşa edilib. "Bakı" hoteli qonaqları qəbul etməyə hazırdır və şadam ki, biz bu böyük turizm mərkəzinin açılışında birlikdə iştirak edəcəyik.

Mərkəzi Asiya ölkələri ilə münasibətlər Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir. Sadəcə qarşılıqlı səfərlərin dinamikasını söyləmək kifayət edər. Mən 2023-cü ilin əvvəlindən bu günə qədər Mərkəzi Asiyanın qardaş ölkələrinə ümumilikdə 16 dəfə səfər etmişəm, həmin ölkələrdən həmkarlarım isə 26 dəfə Azərbaycanda səfərdə olublar. Yəni statistika münasibətlərin dinamikası və yaxınlığından daha yaxşı xəbər verir, həm də göstərir ki, bu gün Mərkəzi Asiya və Azərbaycan artıq vahid geosiyasi və geoiqtisadi məkana çevrilib.

Həmçinin qeyd etmək istərdim ki, mən bu formatın tamhüquqlu üzvü qismində məşvərət görüşündə ilk dəfədir iştirak edirəm. Mərkəzi Asiyanın bütün dövlət başçılarına Azərbaycanın bu qrupun tamformatlı tərkibinə daxil edilməsinə dair keçən il Özbəkistanda qəbul edilmiş tarixi qərara görə bir daha minnətdarlığımı bildirmək istərdim. Bu görüşə qədər mən fəxri qonaq qismində qatılırdım, indi isə komandanın tamhüquqlu üzvü kimi iştirak edirəm.

Bütün həmkarlarıma bir daha təşəkkürümü bildirirəm. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan məşvərət formatının fəal üzvü olacaq və öz tərəfindən əməkdaşlığı daha da inkişaf etdirmək, ölkələrimizi və xalqlarımızı daha sıx yaxınlaşdırmaq üçün bütün səylərini göstərəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

x x x

Sonra digər prezidentlər çıxış etdilər.

Görüşün sonunda Çolpon-Ata Bəyannaməsi imzalandı.

**AZƏRTAC**

2_Layout 1 12.08.2026 18:22 Page 1



# ÇAĞIRIŞÇILAR VƏTƏNƏ SƏDAQƏT ANDI İÇDİLƏR

Avqustun 1-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Bakı, Naxçıvan, Sumqayıt şəhərlərində, eləcə də Quba və Hacıqabul rayonlarında yerləşən hərbi hissələrində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimləri keçirilib.





Mərasimlərdə hərbi rituala uyğun olaraq hərbi hissələrin döyüş bayraqları sıra meydanına gətirilib. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edilib, Dövlət Himni ifa olunub. Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Mərasimlərdə çıxış edənlər əsgərlərə Vətənə, dövlətə və Ali Baş Komandana, hərbi anda sadiq olmalarını, nümunəvi, intizamlı xidmət etmələrini, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş hazırlıqlarını daim artırmalarını, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirmələrini, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşmalarını tövsiyə ediblər.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hərbi andı qəbul edən gənc əsgərlərin qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, həmçinin Daxili Qoşunların daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb.

Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.

Təbrikdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında xalqımızın şanlı qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində və antiterror tədbirlərində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib. Sıralarımıza daxil olan gənclərimizin sədaqət hissi ilə döyünən qəlblərinin hər zaman Vətən eşqi ilə alovlanacağına, xidməti-döyüş tapşırıqlarının daha keyfiyyətlə yerinə yetirilməsində öz fədakar xidmətlərini əsirgəməyəcəklərinə, eləcə də Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacaqlarına, dövlətçiliyimizin qorunması, ölkəmizin daha da qüdrətlənməsi, inkişaf və tərəqqisi naminə uğurlar qazanacaqlarına əminlik ifadə olunub.





Mərasimlər şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# ŞƏXSİ HEYƏTİN BİLİK VƏ BACARIQLARININ ARTIRILMASINA DİQQƏT YETİRİLİR

16073 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və layiqli xidmətilə fərqlənən bölmələrindən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə vəzifələrinin icrasına məsuliyyətlə yanaşır, regionda ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir. Şəxsi heyətin cəlb olunduğu xüsusi əməliyyatlarda qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirməsi bunu deməyə əsas verir.

Bölmənin döyüş təlimi, ictimai-siyasi hazırlığı, daxili qayda-qanuna riayət edilməsi, texnika, silah-sursat və əmlakların vəziyyətinə, eləcə də şəxsi heyət tərəfindən döyüş tapşırıqlarının müvəffəqiyyətlə icra olunmasına cavabdehlik daşıyan dəstə komandiri polkovnik-leytenant Rasim Əliyev bildirdi ki, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi hazırlıq, sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq üzrə məşğələlər keçirilir. Bu zaman onların bilik və bacarıqlarının artırılmasına, məşğələ mövzularının dərindən mənimsənilməsinə diqqət yetirilir.





O, təlim və məşğələlərin, eləcə də aparılan tərbiyə işinin döyüş hazırlığının hər zaman yüksək səviyyədə qorunub saxlanılmasına xidmət etdiyini dedi: “Dəstənin öz vəzifələrini keyfiyyətlə yerinə yetirə bilməsi üçün hərbi hissədə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə təbii ki, böyük məsuliyyət düşür. Bu, dəstənin döyüş hazırlığını daim yüksək səviyyədə qoruyub saxlamaq, qarşıya qoyulan tapşırıqları məsuliyyətlə və vaxtında icra etməkdir”.

Polkovnik-leytenant R.Əliyev onu da əlavə etdi ki, təlimlər zamanı bölmə komandirləri tərəfindən şəxsi heyətin bilik və praktiki vərdişləri şəxsən yoxlanılır: “Tapşırıqların müvəffəqiyyətlə icra olunması şəxsi heyətin bilik və bacarıqlarından çox asılıdır. Əldə olunan müsbət nəticələr təbii ki, yüksək nailiyyətlərin qazanılmasına zəmin yaradır. Hər bir hərbi qulluqçu öz vəzifə borcunu şüurlu surətdə dərk edir, gündəlik olaraq verilən tapşırıqları məsuliyyətlə yerinə yetirməyə çalışır”.

Dəstə komandiri çətin şəraitdə döyüş tapşırıqlarının keyfiyyətlə icrası məqsədilə həftənin cümə günləri 2 saatdan az olmayaraq gecə təlimlərinin təşkil edildiyini də vurğuladı. Təlimlər zamanı bölmə komandiri tərəfindən hərbi qulluqçuların bilik və bacarıqları yoxlanılır.

Dəstədə keçirilən tərbiyə işi saatlarının əhəmiyyətindən söz açaraq şəxsi heyətlə yüksək nizam-intizama nail olunması və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını söylədi. O, bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Sənan Kərimovun əməyini xüsusilə qeyd etdi.

Hərbi xidmətdə daim əzmkarlıq və nümunə göstərməyi bacaran xüsusi vasitələrin tətbiqi dəstəsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə və qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə əminliyini ifadə etdi. Nümunəvi xidmətilə seçilən hərbi qulluqçulardan gizir Elxan Məmmədov, çavuş Ceyhun Abdullayev, əsgərlər Elnur Rzayev və Hikmət Mahmudzadənin adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

# QARŞIYA QOYULAN TAPŞIRIQLARI PEŞƏKARLIQLA YERİNƏ YETİRƏN BÖLMƏ

17072 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən bölmələrindən biri komendant bölüyüdür. Hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkın, anbarların mühafizə və müdafiəsini təmin edən bölüyün şəxsi heyəti döyüş xidmətinin yerinə yetirilməsi zamanı peşəkarlıq nümayiş etdirir.



Komendant bölüyünün komandiri kapitan Qanboy İbrahimov bildirdi ki, hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Onların sağlamlıqları, mənəvi-psixoloji hazırlıqları xüsusilə nəzarətdə saxlanılır. Həmçinin ayıq-sayıqlıq, möhkəm iradə və digər lazımi keyfiyyətlər keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı hərbi qulluqçulara aşılanır. Bu cür məşğələlər həm də şəxsi heyətin bilik və bacarığının artırılmasına təkan verir.

Kapitan Q.İbrahimov əlavə etdi ki, xidmətdən əvvəl bölük komandirinin tərbiyə işləri üzrə müavini tərəfindən hərbi qulluqçulara müvafiq nizamnamənin maddələri çatdırılır: “Ümumiyyətlə, mütəmadi olaraq şəxsi heyətlə fərdi qaydada söhbətlər aparılır, mənəvi-psixoloji vəziyyəti öyrənilir, sağlamlığı tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Həmçinin tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu baş leytenant İlkin Xanlarzadə də xidmətə cəlb olunan şəxsi heyətlə fərdi qaydada söhbət aparır. Qarovulun xidmətinə nəzarət edərkən postlarda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliəsi, stolüstü oyunların oynanılması da diqqət mərkəzində saxlanılır”.



Bölük komandiri təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən şəxsi heyətin postda xidmət apararkən daha ayıq-sayıq, çevik olduğunu, tapşırılmış obyektlərin mühafizəsini qüsursuz yerinə yetirdiyini də qeyd etdi.

Komendant bölüyündə xidmətin təşkilində, hərbi qulluqçuların xidmətə hazırlanmasında, qarovulun yoxlanılmasında bölük komandirinin müavini leytenant Eltac Cəfərzadənin və bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Murad Salmanovun da yaxından iştirak etdiklərini deyən kapitan Q.İbrahimov onların bacarıqlı və çalışqan zabitlər olduqlarını nəzərə çatdırdı.

Kapitan Q.İbrahimov komendant bölüyünün qabaqcıl hərbi qulluqçularından leytenant Elmin Ağayev, gizir Vüsal Abbasov, çavuş Rəhim Babayev, əsgərlər İlkin Musazadə, Nurlan Bəhərzal və Nihad Məmmədovun adlarını çəkərək, onların yoldaşlarına nümunə olduqlarını söylədi.

Sonda bölük komandiri şəxsi heyətin mövcud hərbi intizamı və döyüş hazırlığını qoruyub saxlamaqla bərabər, hissə komandanlığının etimadını hər zaman doğrultmaq əzmində olduğunu vurğuladı.

**kapitan Şahin Cəfərzadə**

3_Layout 1 12.08.2026 18:21 Page 1



# GƏNCƏ ŞƏHƏRİNDƏ YAŞAYAN ŞƏHİD AİLƏSİNƏ BAŞ ÇƏKİLİB

Vətən torpağı uğrunda canlarını qurban verərək şəhidlik zirvəsinə ucalmış hərbi qulluqçularımızın adları xalqımız tərəfindən həmişə uca tutulur, xatirələri ehtiramla anılır, ailə üzvlərinə dərin rəğbət və hörmət nümayiş etdirilir. Şəhidlərin həyatı və qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyətləri gənclərə örnək göstərilir.



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı göz önündədir. Şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində respublikamızda həyata keçirilən tədbirlər təqdirəlayiqdir.



Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər hər zaman diqqət mərkəzində saxlanılır.

17072 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin bir qrup hərbi qulluqçusu hərbi hissənin maddi-texniki təminat xidmətlərinin avtomobil və zirehli texnika xidmətinin zabiti baş leytenant Cahid Babayevin rəhbərliyi ilə şəhid zabit leytenant Qəzənfər Məmmədovun Gəncə şəhərində yaşayan ailəsinə baş çəkib. Şəhidin atası Habil Məmmədov və anası Yeganə Məmmədova hərbi qulluqçularımızı mehribanlıqla qarşılayaraq, onları görməkdən məmnun olduqlarını bildiriblər.

Qeyd edək ki, Q.Məmmədov 1996-cı il avqustun 23-də Gəncə şəhərində doğulub. İstiqanlı, təmkinli, zəhmətkeş, xeyirxah, özünə qarşı tələbkar gənc kimi formalaşıb. İdmanın basketbol növü ilə məşğul olub, yarışlarda uğurla iştirak edərək medal, fəxri fərman və diplomlarla mükafatlandırılıb. Orta təhsilini tamamladıqdan sonra 2014-2018-ci illərdə Daxili Qoşunların Hərbi İnstitutunda hərbi təhsil alıb.

2018-ci ilin iyun ayında leytenant Q.Məmmədov qoşunların 99713 saylı hərbi hissəsinə göndərilib, burada xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsində qrup komandiri vəzifəsinə təyin edilib. Komandiri olduğu qrupun şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi istiqamətində öz zəhmətini əsirgəməyib.

Vətən müharibəsi dövründə leytenant Q.Məmmədov tabeliyindəki döyüşçülərlə birgə ayrı-ayrı istiqamətlərdə təcavüzkarlara tutarlı zərbələrlə cavab verib. Füzuli, Xocavənd rayonlarının ərazilərində və Şuşa ətrafında döyüşlər zamanı o, qorxmaz zabit, yenilməz iradəyə malik komandir kimi hərbi qulluqçulara inamla rəhbərlik edib.

2020-ci il noyabrın 6-dan 7-nə keçən gecə leytenant Q.Məmmədov yaxınlığında partlayan mərminin qəlpələrindən ağır yaralanaraq şəhid olub. Noyabrın 9-dək şəhidin nəşi döyüş zonasından çıxarılıb.

Hərbi qulluqçumuz 12 noyabr 2020-ci ildə Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il, 25 dekabr 2020-ci il və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə leytenant Q.Məmmədov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Bu gün Qəzənfəri həm silahdaşları, həm də ailə üzvləri böyük sevgi və ehtiramla yada salırlar.

Baş leytenant C.Babayev və döyüşçü yoldaşları Qəzənfərin müsbət şəxsi keyfiyyətlərə, peşəkar hazırlığa malik, təcrübəli, intizamı ilə seçilən, vətənpərvər, döyüşçü ruhlu hərbi qulluqçu olduğunu diqqətə çatdırıblar. Vətən müharibəsində onun mərdliklə savaşdığını, hərbi anda sadiq qaldığını vurğulayıblar.

Müharibədən ötən müddət ərzində istər Daxili İşlər Nazirliyinin rəhbərliyi, istərsə də Daxili Qoşunların komandanlığı tərəfindən onlara göstərilən diqqət və qayğıdan razı qaldıqlarını bildirən şəhidin ailə üzvləri buna görə dərin minnətdarlıqlarını ifadə ediblər.

**kapitan Şahin Cəfərzadə**

# BATAREYANIN ŞƏXSİ HEYƏTİ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI İLƏ SEÇİLİR

Daxili Qoşunlara həvalə olunmuş vəzifələrdən biri də zərurət olduqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etməkdir. Bu baxımdan, 16077 saylı hərbi hissənin minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Batareyanın şəxsi heyəti yüksək döyüş hazırlığı və intizamı ilə seçilir. Peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə hərbi qulluqçular mütəmadi olaraq məşğələlərə cəlb olunurlar. Keçirilən məşğələlərin keyfiyyətli təşkil olunmasında minaatan batareyanın komandiri baş leytenant Anar Kərimovun zəhməti danılmazdır.



Minaatan batareyanın vəzifələri barədə danışan baş leytenant A.Kərimov bildirdi ki, əsas tapşırıqlar döyüş əməliyyatları zamanı düşmən üzərinə asanlıqla irəliləmək üçün xüsusi təyinatlı bölmələri atəş dəstəyilə təmin etməkdir. Həmçinin düşmənin komanda-düşərgə məntəqəsini, kimyəvi basqın vasitələrini, artilleriyasını, tanklarını, düzünə artilleriya ilə vurulması mümkün olmayan üstüörtülü sığınacaqlarda yerləşən canlı qüvvəsini məhv etmək, xüsusi əməliyyatların keçirilməsi zamanı silahlı cinayətkarların atəş vasitələrini, istehkam qurğularını dağıtmaq, işıqverməni uzaqdan təmin etmək, eləcə də hədəfdə olan canlı qüvvəni tələfata uğratmaqdan ibarətdir.

Batareya komandiri söylədi ki, qarşıya qoyulan döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi hər bir hərbi qulluqçudan böyük məsuliyyət tələb edir.

Əvvəlcə minaatan qurğular təpələrin, yarğanların əks yamaclarında quraşdırılır. Kəşfiyyat və idarəetmə taqımı şərti olaraq düşmənin yerləşdiyi məsafəni təyin edir. Alınmış məlumat batareyanın mərkəzdə yerləşən baş zabitinə ötürülür. O da, öz növbəsində, həmin məlumatları digər taqımların şəxsi heyətinə çatdırır ki, taqımlar bunun əsasında hədəf üzərində ilkin yoxlama atışı keçirirlər. Kəşfiyyat taqımı optik termal kamera vasitəsilə mərminin düşdüyü yeri, eləcə də sapma məsafəsini müəyyənləşdirir. Xüsusi cihaz vasitəsilə koordinatlar dəqiqləşdirilir və yenidən atəş taqımlarına ötürülür. Batareyanın baş zabitinin "Atəş" komandasından dərhal sonra yaylım atəşləri tam dəqiqliklə həyata keçirilir və düşmən mövqelərinə sarsıdıcı zərbələr endirilir. Üçüncü, sonuncu mərhələdə isə "Tələfat atışı" ilə qarşı tərəfin canlı qüvvəsi və sığınacaqları məhv edilir. Bununla da verilən tapşırıq yerinə yetirilmiş olur.



Baş leytenant A.Kərimov hərbi qulluqçuların peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə onlarla ixtisas hazırlığı məşğələsində "Batareya hücumda" və "Batareya müdafiədə" mövzularında təlimlərin keçirildiyini, həmçinin minaatanın təyinatı, taktiki-texniki xüsusiyyətləri, iş prinsipləri, o cümlədən təhlükəsizlik qaydalarının öyrədildiyini söylədi.

Batareya komandiri funksional vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan baş çavuş Ağası Ağayev, əsgərlər Əşrəf Nuriyev, Nuran Yusibov və Kənan Dünyamalıyevin adlarını çəkdi.

**kapitan Nigar Ağayeva**

*Qazilərimiz*

# MUROVDAĞ DÖYÜŞLƏRİNDƏ AĞIR YARALANAN MƏRD XÜSUSİ TƏYİNATLI

Azərbaycan xalqı həmişə çətin sınaqlar qarşısında, o cümlədən müharibə meydanında öz dəyanətini nümayiş etdirib. Vətən məfhumu millətimizin mənəviyyatı və həyat amalında daim xüsusi yer tutub. Respublikamızın ərazi bütövlüyü uğrunda iki müharibə və antiterror tədbirləri müstəqillik tariximizin unudulmaz səhifələridir.

Ölkəmizi hərbi zəfərə aparan yol keşməkeşli olub, bu şərəfli məramı qurbanlar bahasına reallaşdırmışıq. Ədaləti bərpa edəcəyimizə və haqqımız olanı geri alacağımıza inam uzun illər bizi ayaqda saxlayıb, gücümüzə güc qatıb.

44 günlük Vətən müharibəsi zamanı bütün soydaşlarımızın ürəkləri Qarabağla döyünüb. Ordumuzun ön cəbhədəki rəşadəti hər birimizi qürurlandırıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin xalqa müraciətində söylədiyi "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözləri misilsiz qələbənin parlaq ifadəsi kimi yaddaşımızda silinməz iz qoyub.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunları Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandan tərəfindən qarşıya qoyulan vəzifələri ləyaqətlə yerinə yetirib. Hərbi qulluqçularımız düşmənə qarşı mətinliklə vuruşaraq şəhidlik və qazilik məqamlarına ucalıblar.



Vətən müharibəsi qazisi, istefada olan çavuş Aydın Əlbəndov Daxili Qoşunların sabiq hərbi qulluqçusudur. O, 1996-cı il avqustun 19-da Yevlax rayonunun Nərimanabad kəndində doğulub. Əlbəndovlar ailəsinin yaşca kiçik övladıdır, bacısı və qardaşı var. Zəhmətkeş və mehriban bir ailədə böyüyərək tərbiyə alıb. El-oba arasında öz ədəb-ərkanı ilə hörmət qazanıb.

Bərdə şəhərində yerləşən Nizami Gəncəvi adına 2 saylı tam orta məktəbin məzunudur. Şagird ikən fiziki tərbiyə və çağırışaqədərki hazırlıq fənləri onu daha çox maraqlandırıb. Məktəbli olduğu vaxtdan hərbçi peşəsinə rəğbət bəsləyib. Bu peşəyə yiyələnməyi qarşısına məqsəd qoyub.

Aydın yeniyetmə çağından idmanın Şotokan karate-do növü ilə məşğul olub, "qara kəmər" ustasıdır. Rusiya Federasiyası və Azərbaycanda müxtəlif yarışlara qatılıb, öz məharəti sayəsində qalib yerləri tutub.

2014-cü ilin oktyabr ayından 2016-cı ilin aprel ayınadək DİN-in Daxili Qoşunlarının sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 99713 saylı hərbi hissənin komendant bölüyündə nümunəvi xidmət edərək əsgəri borcunu vicdanla yerinə yetirib.

2016-cı ilin aprel ayından etibarən Aydın öz arzusu ilə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Beləliklə, həyatını hərbçi peşəsinə bağlayıb. 17074 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı, xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun heyət nəfəri, xüsusi həmlə qrupunun atıcı-sanitarı vəzifələrində xidmət edərək komandanlığın etimadını doğruldub. Müxtəlif mükafatlara layiq görülüb. Müsbət şəxsi keyfiyyətlərinə görə silahdaşları ona hörmətlə yanaşıblar. Xüsusi təyinatlı kimi döyüş və mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsi üçün əzmlə çalışıb, təlimlərdə atəş, fiziki və taktiki hazırlığı ilə fərqlənib.

Vətən müharibəsi iştirakçısı, 17074 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri baş çavuş Əlvan Hüseynovla söhbət zamanı məlumat verdi ki, Aydın onun tabeliyində xidmət edib. Məsuliyyətli və vətənpərvər hərbi qulluqçu kimi verilən bütün tapşırıqların öhdəsindən layiqincə gəldiyini xüsusi vurğuladı. Şimal bölgəsindəki bir sıra sərhəd rayonlarında XTD-nin təyinatından irəli gələn müxtəlif tapşırıqların icrasına cəlb olunub. Vətən müharibəsindən əvvəl xüsusi təyinatlı bölmələrin taktiki təlimlərində iştirak edib. Yarımqrup komandiri bildirdi ki, müharibə başladıqda Aydın ilk gündən ön cəbhəyə göndərilib, döyüşlərdə öndə gedib. Belə ağır və şərəfli sınaqda öz mərdliyi ilə qazilik məqamına yüksəlib.

Qeyd edim ki, 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən müharibəsi dövründə DİN-in Daxili Qoşunlarının hərbi qulluqçuları Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birgə torpaqlarımızın işğaldan azad olunması naminə cəsurluqla vuruşublar. Onlar müharibənin hər üzünü görüblər, döyüş şəraitində peşəkarlıq cəhətdən digər qoşun növlərinin xüsusi təyinatlılarından geri qalmayıblar.

2020-ci il sentyabrın 27-də mürəkkəb relyefə və dəyişkən iqlimə malik Murovdağ silsiləsinin Gamışdağ yüksəkliyi istiqamətində döyüş tapşırıqlarının icrasına cəlb edilən Aydın silahdaşları ilə birlikdə erməni işğalçılarına qan uddurub, onların müdafiə mövqelərinin yarılması, atəş nöqtələrinin susdurulmasında qətiyyət göstərib. Silah-sursatdan bacarıqla istifadə edən, çətin maneələri dözüm və iradəsi ilə keçən, ağır vəziyyətlərdə özünü itirməyən, döyüşçülərə köməyini əsirgəməyən xüsusi təyinatlıya ruh yüksəkliyi güc verib.

Ağdam rayonunun Çəmənli kəndində yaşayan, Vətən müharibəsi qazisi, ehtiyatda olan çavuş Məmməd Hacıyev Aydınla birlikdə xidmət edib və döyüşüb. O, silahdaşının yaxşı insan, etibarlı yoldaş olduğunu, xidmət zamanı lazımi nəzəri və praktiki biliklərə sahibləndiyini, hərtərəfli hazırlığı ilə seçildiyini, atıcı-sanitar kimi ilk tibbi yardım göstərilməsi qaydalarını mükəmməl bildiyini dedi. Məmməd qeyd etdi ki, Aydının ön cəbhədə döyüş yolu qısa vaxtı əhatə etsə də, bir neçə gün ərzində müharibənin od-alovunu görüb, təhlükəli məqamlar yaşayıb, ürəklə, qorxmadan vuruşub.

Qazinin sözlərinə görə, Aydın Kəlbəcər rayonunun Susuzluq kəndi istiqamətində xüsusi döyüş tapşırığının icrasından qayıdarkən düşmən minaatanından atılan mərminin yaxınlığında partlaması nəticəsində ağır yaralanıb. Döyüşçüyə ilk tibbi yardım göstərilərək arxaya təxliyəsi təşkil edilib.

2020-ci il sentyabrın 30-da ağır yaralanan Aydın həmin günü belə xatırlayır: "Minaatan mərmisinin partlaması nəticəsində sağ qolumdan dəlib-keçən qəlpə sinirləri zədələyib, sağ ayağımda isə qəlpə arxa əzələ toxumasını qoparıb və bud sümüyümü tam sındırıb. Sol ayağımı, ayaqlarımın arasını da dəlib-keçən qəlpələr yaralayıb və digər ağır xəsarətlər almışam. XTQ-nin iki nəfər hərbçisi köməyimə yetişib, qoluma, ayağıma jqut bağlayıb, keyidici iynə vurub. Atəş altındakı ərazidən çıxarılmışam, sonra sanitar avtomobillə daşınmışam. İlk olaraq Gəncə Mərkəzi Klinikasına gətirilmişəm. Oradan Bakıdakı Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna köçürülmüşəm. Ayağımın amputasiya olunması təhlükəsi vardı. Üzərimdə cərrahiyyə əməliyyatları aparılıb. Daha sonra Daxili Qoşunların Hərbi Qospitalında müalicə olunmuşam. Sağlamlığımın bərpasında zəhməti olan bütün həkimlərə və digər tibb işçilərinə minnətdaram".

Hərbi-həkim komissiyasının rəyinə əsasən, həm sülh, həm də müharibə dövrlərində hərbi xidmətə yararsız hesab edilərək 2-ci əlillik dərəcəsi verilən çavuş A.Əlbəndov 2021-ci ilin noyabr ayında Daxili Qoşunların sıralarından istefaya buraxılıb.

Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2021-ci il tarixli, Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamları, müdafiə nazirinin 3 noyabr 2020-ci il tarixli əmri ilə çavuş A.Əlbəndov "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Şücaətə görə" medalları ilə təltif edilib.

Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının 31 dekabr 2020-ci il tarixli əmri ilə xüsusi təyinatlıya zoğalı beret daşıma hüququ verilib.

Dövlətimiz tərəfindən qaziyə qayğı göstərilərək avtomobillə təmin olunub.

Yevlax rayonunun Nərimanabad kəndində yaşayan Aydının atası Süleyman Əlbəndov 2021-ci il noyabrın 17-də xəstəlik səbəbindən vəfat edib, anası Təranə Əlbəndova evdar qadındır. Müharibədən sonra Reyhan xanımla ailə quran Aydının Təranə və Aydan adlı azyaşlı övladları var. Doğmaları, el-obası onunla fəxr edirlər, keçdiyi şərəfli yol gənclərə örnəkdir. Hazırda səhhəti ilə əlaqədar işləmir, müalicəsini davam etdirir.

Aydın ürək sözlərini belə ifadə etdi: "Vətəni sevmək müqəddəs hissdir, onu qorumaq hər birimizin borcudur. İstərdim ki, gələcək nəsillər düşmən tapdağında olmuş torpaqlarımızın hansı çətinliklərlə, necə qurbanlar bahasına azad olunduğunu heç vaxt unutmasınlar".

**Yalçın Abbasov**

4_Layout 1 11.08.2026 16:11 Page 1



# İSTEHKAMÇI YARIMQRUPU UĞURLU XİDMƏTİ İLƏ FƏRQLƏNİR

17072 saylı hərbi hissənin hərbi qulluqçuları qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində ayıq-sayıqlıq nümayiş etdirirlər. Hərbi hissənin döyüş




hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur.

Xidmət müddətində bir çox tapşırığı uğurla yerinə yetirən istehkamçı yarımqrupunun komandiri-baş istehkamçı gizir Elçin Quliyev söylədi ki, yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların - partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.

Yarımqrup komandiri qarşıya qoyulan tapşırıqların keyfiyyətlə icra edilməsi məqsədilə hərbi hissə komandirinin təsdiq etdiyi müvafiq plana əsasən, şəxsi heyətlə mütəmadi olaraq məşğələlərin keçirildiyini bildirdi.

Məlumat üçün qeyd edək ki, gizir E.Quliyev 2013-cü ilin noyabr ayından Daxili Qoşunların sıralarındadır. 17072 saylı hərbi hissədə müxtəlif vəzifələrdə xidmət edib, verilən tapşırıqları keyfiyyətlə yerinə yetirib. 2015-ci ilin aprel ayından isə is-



tehkamçı yarımqrupunun komandiridir. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Xüsusi təyinatlı dəstənin komandiri mayor Nadir Şərifov da hərbi qulluqçumuzun uğurlarının peşəsinin sirlərinə dərindən bələd olmasından və öz işinə tam məsuliyyətlə yanaşmasından irəli gəldiyini söylədi.

Yarımqrupun nümunəvi hərbi qulluqçularından baş çavuş Qəhrəman Şahquluyev və çavuş Elçin Əhmədağalı vəzifələrinin icrasında hər zaman fərqlənirlər. Xidmətini uğurla davam etdirən şəxsi heyət bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazırdır.

**kapitan Şahin Cəfərzadə**

# CAMAŞIRXANA MÜASİR TEXNİKİ AVADANLIQLARLA TƏCHİZ OLUNUB

Qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində, hərbi hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxla-




nılmasında təkcə hərbi qulluqçuların deyil, işçilərin də əməyi böyükdür. Şəxsi heyətin həftə ərzində istifadə etdiyi əmlakların yuyulması camaşırxana işçiləri tərəfindən həyata keçirilir. Qeyd etmək lazımdır ki, camaşırxana bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Funksional vəzifələrini vaxtında və düzgün yerinə yetirən 16073 saylı hərbi hissənin təminat bölüyünün təminat taqımının hamam-camaşırxana kombinatının rəisi baş çavuş Şirxan Ərzimanlı 2019-cu ilin iyul ayından Daxili Qoşunların sıralarında xidmət edir. 2021-ci ilin yanvar ayından hazırki vəzifədədir.

Camaşırxanada olan avadanlıqların saz olmasına, texniki vasitələrdən istifadə zamanı təhlükəsizlik tədbirlərinə və sanitar-gigiyena qaydalarına riayət edilməsinə cavabdehlik daşıyan hərbi qulluqçumuz qarşıya qoyulan tapşırıqları keyfiyyətlə icra edir.

Baş çavuş Ş.Ərzimanlı görülən işlər barədə məlumat verərkən bildirdi ki, hər həftə hamam tədbirlərindən sonra cümə və şənbə günləri əsgərlərin çirkli əmlakları yuyulur. Hər bir əmlak qurudulub ütüləndikdən sonra çeşidlənərək, aidiyyəti üzrə bölmələrə təhvil verilir.



Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur, sanitar-gigiyenik qaydalara ciddi əməl edilir.

O, tabeliyində olan işçi xanımların fəaliyyətindən də söz açdı, işgüzar və mənəvi keyfiyyətlərini sadaladı. Bildirdi ki, təminat bölüyünün təminat taqımının təminat manqasının xüsusi geyimlərin təmiri və yuyulması üzrə maşinisti vəzifəsində işləyən İntizar Paşayeva, Həcər Yarməmmədova və İradə Əlisanova artıq uzun zamandır ki, hərbi hissədə əsgərlərin qayğısına qalırlar. Öz işlərini sevərək və vicdanla yerinə yetirirlər.

**kapitan Xədicə Hacızadə**

# GƏLƏCƏYİMİZİ BİRLİKDƏ DÜŞÜNƏK, NARKOMANİYAYA “YOX” DEYƏK!

Müasir dövrdə hər birimizi düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır. Dünya ictimaiyyətinin səylərinə baxmayaraq, hələ də narkomaniya bəlası ilə mübarizə aparmaq üçün səmərəli yollar aşkar etmək və narkomanların sayını azaltmaq mümkün olmayıb.

Narkomaniya ilə mübarizə uzunmüddətli, çoxşaxəli, külli miqdarda pul vəsaiti tələb edən bir prosesdir. Problemin ictimai təhlükəli olması isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və günü-gündən artır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, yəni oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.



Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində ölkəmizdə də məqsədyönlü işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 17 sentyabr 2025-ci il tarixli Sərəncamı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı” təsdiq edilib.

Dövlət Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Daxili Qoşunlarda Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən təsdiq edilmiş müvafiq tədbirlər planının vaxtlı-vaxtında icrası təmin olunur.

Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələlər planlaşdırılıb keçirilir.

Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bununla yanaşı, hərbi qulluqçuların sağlamlıqlarının qorunmasına xidmət edən maarifləndirmə işlərinin genişləndirilməsi üçün mütəmadi olaraq Daxili Qoşunların tibb xidmətinin həkim hərbi qulluqçuları tərəfindən hərbi hissələrdə tibbi-profilaktiki işlər görülür.

Gələcəyimizi məhvə aparan və “ağ ölüm” adlandırılan narkomaniya ilə mübarizə nəinki dövlətin, hər bir vətəndaşın borcudur.

**Mətbuat xidməti**

*NÜMUNƏVİ XİDMƏT*

# MƏSULİYYƏTLİ VƏ TƏLƏBKAR MANQA KOMANDİRİ

17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun nümunəvi hərbi qulluqçularından biri çavuş Yusif Məmmədovdur. O, 2007-ci ilin yanvar ayının 31-də Şamaxı rayonunun Quşçu kəndində doğulub. 2013-2024-cü illərdə Bakı şəhərinin Qaradağ rayonunda yerləşən Etibar Şirəliyev adına 274 nömrəli tam orta məktəbdə təhsil alıb. 2025-ci ilin aprel ayında 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Həmin ilin avqust ayında 25032 saylı hərbi hissənin kiçik komandirlər hazırlayan tədris bölüyündə müvafiq kursu müvəffəqiyyətlə bitirərək 17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taboruna göndərilib. Hazırda taborun patrul bölüyünün taqımının manqa komandiri vəzifəsində xidmətini uğurla davam etdirir.



Xidmətdə nümunəvi, intizamlı və bacarıqlı hərbi qulluqçu kimi xarakterizə olunur. Vəzifələrinin icrasına məsuliyyətlə yanaşır, hərbi nizamnamələrin tələblərini bilir, qarşıya qoyulan tapşırıqları keyfiyyətlə yerinə yetirir. Manqa komandiri kimi tabeliyində olan hərbi qulluqçulara tələbkar yanaşır, onların məişət ehtiyaclarını öyrənir, manqanı bacarıqla idarə edir.

Ayrı yerləşən patrul taborunun komandirinin tərbiyə işləri üzrə müavini mayor Tural Qasımov da çavuş Y.Məmmədovu müsbət xarakterizə etdi. Onun verilən tapşırıqları çevik və vaxtında yerinə yetirdiyini söylədi.

**17072 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# KOMENDANT TAQIMININ SAYIQ, İNTİZAMLI ƏSGƏRİ

25033 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun komendant taqımının intizamı, layiqli xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından biri əsgər Eyvaz Hüseynovdur. Taqım komandiri leytenant Ramil Yusifov tərəfindən müsbət xarakterizə olunan əsgər qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir, bacarığı, nizam-intizamı ilə seçilir, kollektivdə nüfuza malikdir.



Əsgər E.Hüseynov 2007-ci ilin iyul ayının 5-də Mingəçevir şəhərində anadan olub. Yevlax şəhəri Nəriman Nərimanov adına 9 saylı tam orta məktəbdə təhsil alıb. 2024-cü ildə orta təhsilini tamamlayıb. 2025-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda komendant taqımının atıcısı vəzifəsində xidmətini layiqincə davam etdirir.

O, daim üzərində çalışır, özünə qarşı tələbkardır, biliyi və əzmkarlığı sayəsində qəflətən yarana biləcək təhlükəni dəf etməyə qadirdir. Çətinliklərə dözümlüdür, ayıq-sayıqdır. Döyüş hazırlığını artırmaq üçün səy göstərir. Xidmətə ciddi münasibətilə seçilir. Hərbi xidmətə həvəsi, məsuliyyəti ilə yanaşı, nizamnamə tələblərini bilir və gündəlik xidmətində onlara əməl edir. Qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirir. Taqımın fəallarındandır.

Daxili Qoşunlarda xidmətilə fəxr edən əsgər E.Hüseynova biz də hərbi xidmətini uğurla başa vurmağı arzu edirik.

**25033 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyənin STM və ROKETSAN şirkətləri tərəfindən birgə inkişaf etdirilmiş ALPAGUT süzən sursatının atış sınağı keçirilib

“Poliqon” xəbər verir ki, bu barədə STM şirkətinin baş direktoru Özgür Güleryüz özünün “X” sosial şəbəkə hesabında məlumat paylaşıb.

Bildirilib ki, sınaq zamanı “Akıncı” pilotsuz uçuş aparatından (PUA) buraxılan ALPAGUT süzən sursatı yerüstü hədəfi dəqiqliklə vurub.

Gecə və gündüz əməliyyatlar həyata keçirə bilən ALPAGUT hərəkətli və ya sabit quru və dəniz hədəflərinə, radar və rabitə sistemlərinə, yüngül zirehli quru və ya dəniz nəqliyyat vasitələrinə, komanda mərkəzləri kimi kritik obyektlərə, canlı qüvvəyə və fürsət hədəflərinə qarşı effektivdir.

60 kilometr əməliyyat radiusuna, 60 dəqiqədən çox havada qalma müddətinə malik olan və müxtəlif tipli döyüş başlıqları daşıya bilən ALPAGUT həm fərdi, həm də sürü konsepsiyası çərçivəsində istifadə edilə bilər. Uzunluğu 2.3 m olan süzən sursatın kütləsi 55 kq, döyüş başlığının ağırlığı isə 11 kq təşkil edir.

Sistemin iş prinsipi belədir: buraxıldıqdan və ya atıldıqdan sonra ALPAGUT müəyyən müddət ərzində havada dövrə vuraraq hədəfin aşkarlanması, izlənməsi



və qiymətləndirilməsi fəaliyyətlərini həyata keçirir. Daha sonra operator tərəfindən göndərilən təsdiq əsasında hədəfə şığıyaraq onu məhv edir. Avtonom missiya zamanı isə operator tərəfindən əvvəlcədən müəyyən edilmiş hədəfə zərbə endirilir.

ALPAGUT sahib olduğu elektro-optik/infraqırmızı (EO/IR) axtarıcı başlıq vasitəsilə hədəfi aşkar edilmədən müəyyənləşdirə və identifikasiya edə bilir. O, mövqeləndirmə sistemlərinin siqnal qarışdırmasına qarşı yüksək dayanıqlılığa malik olan dəqiq tuşlama, idarəetmə və hərəkət sistemi sayəsində hədəfə yüksək dəqiqliklə yönələ bilir.

Sursat bütün bu xüsusiyyətlərlə yanaşı, əvvəlcədən müəyyən edilmiş hədəflərə qarşı “at və unut” qabiliyyətinə malikdir. Bundan əlavə, zərurət yarandıqda uçuş zamanı istifadəçinin qərarı əsasında missiyanı dəyişə bilməsi ALPAGUT-a mühüm üstünlüklər qazandırır.

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası ehtiyatda olan **gizir Surxay Niftəliyevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: Şahin Cəfərzadə**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 590-65-26**

**Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**